**Dəmirçiyeva M.D.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.36-42**
**UOT: 347.62**

# Azərbaycan Respublikasının qanunvericiliyində nikah müqaviləsi

**Xülasə:** Azərbaycan Respublikasının qüvvədə olan mülki və ailə qanunvericiliyinin yeniliklərindən biri də nikah müqaviləsinin müəyyən edilməsidir. Ölkəmizin AM-si ilə yanaşı, MM-də də nikah müqaviləsinin bağlanılması nəzərdə tutulmuşdur. MM-nin 225.1-ci maddəsinə əsasən, nikah kontraktında ayrı qayda nəzərdə tutulmadıqda ərlə arvadın nikah dövründə qazandıqları əmlak onların ümumi mülkiyyəti sayılır. Lakin nikah müqaviləsinin məzmunu, şərtləri, bağlanma qaydası, dəyişdirilməsi, pozulması əsasları MM-də deyil, AM-nin "Ər-arvadın mülkiyyətinin müqavilə rejimi" adlanan 8-ci fəslində müəyyən edilmişdir.

**Acar sözlər:** nikah; müqavilə; ər-arvad; qanuni rejim.

Nikah müqaviləsinin anlayışı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 38-ci maddəsində verilmişdir: nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir. Nikah müqaviləsi ər-arvad arasında mövcud olan ümumi əmlakın qanuni rejiminin ər-arvadın mülkiyyətinin müqavilə rejimini müəyyən etməklə dəyişdirilməsinə yol verən sazişdir.

Nikah müqaviləsi özünün təbiətinə görə mülki müqavilənin bir növü kimi təzahür edir. Azərbaycan Respublikasının mülki qanunvericiliyində müqavilənin anlayışı mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması kimi müəyyən edilmişdir (maddə 389). Qanunun bu göstərişinə müvafiq tərtib edilən nikah müqaviləsi Mülki Məcəllənin tələblərinə cavab verməlidir. Nikah müqaviləsi bağlanarkən sazişin qanuniliyinə xələl gətirə biləcək amillər - tərəflərin fəaliyyət qabiliyyətsizliyi, onların azad iradə ifadəsini məhdudlaşdıran hallar, müqavilənin qanuniliyinə zidd olan məzmun istisna olunmaqla, nikah müqaviləsinin bağlanma qaydasına riayyət edilməlidir. Nikah müqaviləsinin mülki qanunvericiliyində təsbit olunmuş əsaslar və qayda üzrə bağlanması ilə yanaşı, nikah müqaviləsinin dəyişdirilməsi və pozulması məsələləri də Mülki Məcəllədə müəyyən edilmiş qaydalara müvafiq həll olunur. Bununla belə, nikah müqaviləsi mülki müqavilələrdən fərqli olan müəyyən xüsusiyyətlər ilə səciyyələnir ki, bu da öz əksini Ailə Məcəlləsində tapmışdır. Nikah müqaviləsinin səciyyəvi xüsusiyyəti onun subyekt tərkibinə, bağlanma tarixinə, müqavilənin predmetinə və məzmununa aiddir.

Nikah müqaviləsinin subyektləri, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 38.1-ci maddəsindən göründüyü kimi, nikaha daxil olmaq istəyən, yəni hələ ər-arvad münasibətlərində olmayan şəxslərdir. Nikaha daxil olmaq qabiliyyəti yaş həddi ilə bağlıdır, nikah müqaviləsi bağlamaq qabiliyyəti isə - nikaha daxil olmaq qabiliyyəti ilə bağlıdır. Ona görə nikah müqaviləsi nikah yaşına (yəni 18 yaşına) çatmış, hüquq və fəaliyyət qabiliyyətinə malik olan şəxslər arasında

[♦] **Dəmirçiyeva Məhəbbət Dəyirman qızı –** hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Mülki hüquq kafedrasının müdiri (Azərbaycan). E-mail: mahabbat_d.h.t@mail.ru

bağlana bilər. Əgər nikaha daxil olan şəxs nikah yaşına çatmayıbsa, lakin nikaha daxil olmaq üçün yerli icra hakimiyyəti orqanının icazəsini əldə edibsə, həmin şəxs nikah müqaviləsini öz qanuni nümayəndələrinin, valideynlərinin, övladlığa götürənlərinin və ya himayəçisinin yazılı razılığı ilə nikahın bağlanması anından əvvəl bağlamalıdır (Mülki Məcəlləsinin 30.1-ci maddəsi). Nikaha daxil olandan sonra yetkinlik yaşına çatmayan ər (arvad) tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir (Mülki Məcəllənin 28.6-cı maddəsi) və deməli, müstəqil surətdə nikah müqaviləsi bağlamaq hüququna malikdir. On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin (və ya onları əvəz edən şəxslərin) razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Bu, hər iki valideynin, övladlığa götürənlərin və ya himayəçinin razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə mümkündür. Yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılan (emansipasiya olunan) şəxslər nikaha qanunla müəyyən olunmuş qaydada daxil olarkən nikah müqaviləsini müstəqil bağlamaq hüququna malikdirlər (Mülki Məcəllənin 28.4-cü maddəsi). Fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış şəxs (Mülki Məcəllənin 32-ci maddəsi) himayəçisinin razılığı ilə nikah müqaviləsinin subyekti ola bilər. Mülki əqdlərin digər növlərindən fərqli olaraq, nikah müqaviləsi xüsusi şəxsi səciyyəyə malik olduğundan nə nikaha daxil olan şəxsin və ya ərin (arvadın) qanuni nümayəndəsinin iştirakı ilə, nə də vəkalətnamə vasitəsilə bağlana bilər.

Nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxtda bağlana bilər (Ailə Məcəlləsinin 39.1-ci maddəsi). Lakin nikahın bağlanmasının dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir (Ailə Məcəlləsinin 39.2-ci maddəsi).

Nikah müqaviləsinin bağlanması nikaha daxil olan şəxslərin və ər-arvadın vəzifəsi deyil, hüququdur. Ona görə nikahda olan ər-arvad nikahda olduğu müddətdən asılı olmayaraq, iqtisadi mənafeləri tələb etdikdə istənilən vaxt nikah müqaviləsini bağlaya bilərlər. Nikah müqaviləsinin hüquqi qüvvəsi nikahın özünün dövlət qeydiyyatına alınmasından asılıdır. Nikah müqaviləsinin bağlanmasına baxmayaraq, əgər nikah dövlət qeydiyyatına alınmamış qalıbsa, həmin nikah müqaviləsinin hüquqi qüvvəsi yoxdur və müqavilə subyektləri arasında heç bir hüquq və vəzifə yaratmır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 39.3-cü maddəsi xüsusilə qeyd edir ki, nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydada təsdiq olunur.

Azərbaycan Respublikasının qüvvədə olan mülki və ailə qanunvericiliyinin yeniliklərindən biri də nikah müqaviləsinin müəyyən edilməsidir. Ölkəmizin AM-si ilə yanaşı, MM-də də nikah müqaviləsinin bağlanılması nəzərdə tutulmuşdur. MM-nin 225.1-ci maddəsinə əsasən, nikah kontraktında ayrı qayda nəzərdə tutulmadıqda ərlə arvadın nikah dövründə qazandıqları əmlak onların ümumi mülkiyyəti sayılır. Lakin nikah müqaviləsinin məzmunu, şərtləri, bağlanma qaydası, dəyişdirilməsi, pozulması əsasları MM-də deyil, AM-nin “Ər-arvadın mülkiyyətinin müqavilə rejimi” adlanan 8-ci fəslində müəyyən edilmişdir. Hesab edirik ki, milli qanunvericiliyimizdə ər-arvadın mülkiyyətinin müqavilə rejimi ölkənin sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin nəticəsi olaraq təsbit edilmişdir.

Nikah müqaviləsinin çoxdan tətbiq edildiyi ABŞ və Avropada nikaha daxil olanların təxminən 70%-i öz aralarında nikah müqaviləsini bağlayır. Qonşu Rusiyada bu göstərici 2007-ci ilədək təxminən 3-5% səviyyəsində idisə, 2008-ci ildən 6-10 % səviyyəsinə çatmağa başlamışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmisinin sözlərinə görə, ölkəmizdə əvvəllər nikah müqavilələrinin sayı cəmi 50-60 faktdan ibarət idisə, hazırda təxminən 120-130-dur

ki, bu da ümumi nikahların heç bir faizini təşkil etmir. Nikah müqavilələrin əksəriyyəti yerli vətəndaşlar arasında bağlanır [4].

Respublikamızda nikah müqavilələrin sayının az olmasının müxtəlif səbəbləri vardır. Fikrimizcə, ən birinci səbəb bu sahədə təbliğat işinin zəif olmasıdır. Üstündən təxminən 20 il müddətin keçməsinə baxmayaraq, insanların böyük əksəriyyəti hələ də milli qanunvericiliyimizə daxil edilmiş bu yeniliyin mahiyyətindən xəbərsizdir. Nikah müqaviləsi institutundan xəbərdar olsa da, ondan istifadə etməyən insanların çox hissəsi isə bu hüquqi mexanizmin varlı, imkanlı ailələr üçün olduğunu düşünür. Nikah münasibətlərinə daxil olanların müəyyən hissəsi isə aralarında əmlak münasibətlərini tənzimləyən bu cür müqavilələrin bağlanılmasını əvvəlcədən bir-birlərinə etimadsızlıq göstərmələrinin təzahürü kimi qiymətləndirir. Halbuki nikah müqaviləsi institutunun düzgün anlaşılması və tətbiqi ailə münasibətlərinin möhkəmlənməsinə, nikahın pozulması zamanı isə əmlak mübahisələrinin dinc, mübahisəsiz və operativ şəkildə həll edilməsinə kömək edəcəkdir.

Nikah müqaviləsinin tarixi düşündüyümüz qədər yeni deyildir. Hələ qədim Misirdə, Yunanıstanda, Romada kişi ilə qadın arasında ailə qurmazdan əvvəl birgə nikah dövründə əldə olunmuş əmlakın taleyini, miras qoyulmasını müəyyən edən sazişlər imzalanmışdır. Qədim Romada nikah müqaviləsinin (latın dilində "tabulae nuptiales") bağlanılması mütləq olmasa da, bir zamanlar sosial cəhətdən bərabər olmayan şəxslər arasında nikaha daxil olma halları kifayət qədər geniş yayılmışdır. Toy mərasimləri vaxtı bu müqavilələr uca səslə oxunmuş və 10 nəfər şahidin imzası ilə təsdiq olunmuşdur [6]. Azərbaycanda Sasanilərin hakimiyyəti dövrünün "Tənsar məktubu" (VI əsr) və "Matikan" (VII əsr) kimi hüquq abidələrində nikah və vərəsəlik məsələləri ətraflı işıqlandırılır. "Matikan"da tərəflər arasında nikah müqaviləsinin bağlanılması da nəzərdə tutulmuşdur. Nikah müqaviləsində bir sıra hallar ilə yanaşı, həm cehizin, həm də oğlan tərəfinin qız tərəfinə verəcəyi başlığın məbləği müəyyən edilmişdir [5]**.**

Müasir Avropada nikah müqaviləsinin tətbiqi zərurəti qadınla kişinin nikaha daxil olanadək mövcud olmuş əmlakları üzərində mülkiyyət hüququnu qoruya bilmək istəklərindən irəli gəlmişdir. Fransa mülki qanunvericiliyində nikah müqaviləsi ilk dəfə 21 mart 1804-cü il tarixli Napoleon Məcəlləsində təsbit olunmuşdur. İngiltərədə 1882-ci ilədək ümumi hüquqa görə ("common law")ər-arvadın əmlakı yalnız kişiyə (ərə) məxsus olmuşdur. Ərli qadın əmlak müstəqilliyinə malik olmamış, nikaha daxil olanadək ona məxsus olmuş əmlak da ərinin mülkiyyətinə keçmişdir. Bu ölkədə yalnız 1882-ci ildə ərli qadınların mülkiyyəti haqqında qanun qəbul edilmiş və nikah müqaviləsinin bağlanılması yolu ilə qadının (arvadın) həm nikahadək, həm də nikahdan sonrakı əmlakı üzərində mülkiyyət hüququnun rəsmiləşdirilməsinə icazə verilmişdir [**6].**

Çar Rusiyasında ər-arvadın, valideyn və uşaqların əmlak rejimi, əsasən, ayrıca (şəxsi) mülkiyyət rejiminə əsaslanmışdır [10, s. 446-447]. Ər-arvad arasında baş verən əmlak mübahisələri zamanı, xüsusən, iki şərtə diqqət yetirilmişdir: 1) ər-arvad arasında nigah münasibətlərinin mövcud olub olmaması, 2) hüquq pozuntusunun xarakteri və ictimai–təhlükəlilik dərəcəsi. Ər–arvad arasında əmlak hüquq pozuntularına görə məsuliyyətin yaranması üçün zərərçəkmişin şikayəti vacib olmuşdur. Təsadüfi deyildir ki, Rusiyanın "Cinayət və islah cəzaları haqqında" 1845-ci il Qanunnaməsinin 1664 və 1675-ci maddələrində göstərilmişdir ki, valideynlərlə uşaqlar və ər–arvad arasında oğurluq və dələduzluq haqqında işlər cinayətdən zərər çəkmiş şəxsin şikayətinə əsasən başlanır. İnqilaba qədərki hüquqşünas alimlərin fikrincə, ər–arvad arasında törədilən əmlak hüquq pozuntuları, əsasən, qəsdin obyektinin və subyektinin xüsusiyyətləri ilə fərqlənir [9, s. 53]. Bununla belə, çar Rusiyasında da nikah müqaviləsi institutunun mövcud olduğunu qeyd etmək lazımdır. Buna bariz nümunə kimi A.S.Puşkin ilə arvadı N.N.Qonçarova arasında bağlanılmış nikah

müqaviləsini göstərmək olar. A.S.Puşkinin ölümündən sonra əmlakının xeyli hissəsi borclarına silinsə də, N.N.Qonçarova nikah müqaviləsinin ona verdiyi imkandan istifadə edərək, ərinin öhdəliyinin öz şəxsi əmlakına (cehizinə) qarşı yönəldilməsinin qarşısını ala bilmişdir [8, s. 77].

Sovet hakimiyyəti dövründə ər-arvad arasında əmlak münasibətləri ümumi birgə mülkiyyət rejimini nəzərdə tutan imperativ normalar ilə tənzim olunmuşdur. Bu rejimin dəyişdirilməsini müəyyən edən hər hansı müqavilənin bağlanılmasına icazə verilməmişdir. 1990-cı ildə qəbul olunmuş SSR İttifaqı və müttəfiq respublikaların ailə qanunvericiliyi Əsaslarında ər-arvad arasında əmlak münasibətlərinin hüquqi tənzimlənməsində ümumi (birgə) mülkiyyət rejiminin müddəalarından kənara çıxmağa icazə verilmişdir. Belə ki, Əsaslarda ər-arvadın ümumi əmlakından onların nikah münasibətlərinə faktik olaraq xitam verildiyi vaxtdan əldə edilmiş əmlakın ayrılmasına imkan verən müddəa nəzərdə tutulmuşdu.

Müasir nikah müqaviləsinin təşəkkülü kapitalizm cəmiyyətinin, xüsusi mülkiyyət münasibətlərinin inkişafına söykənir. Belə ki, kapital sahibləri şəxsi əmlaklarını kənar müdaxilələrdən qorumaq, ailə daxilində yarana bilən əmlak mübahisələrinin daha sadə yolla həllinə nail olmaq üçün nikah müqaviləsi institutunun müasir modelinin yaradılmasında maraqlı olmuşlar. XVIII əsrin axırları – XIX əsrin əvvəllərində İngiltərə, Fransa, Almaniya, Avstriya və digər Avropa ölkələrində dünyəvi nikahın kilsə nikahını əvəz etməsi bu prosesə təkan vermişdir. Zərif cinsin nümayəndələrinin nikah münasibətlərində kişilər ilə bərabər hüquqluluq prinsipinin təmin edilməsi uğrunda apardıqları mübarizənin də, şübhəsiz, bu işdə müəyyən rolu olmuşdur. İlk nikah müqaviləsi Fransada 1804-cü il Napaleon Məcəlləsində təsbit olunmuşdur.

Qeyd etdiyimiz kimi, müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının ictimai, sosial-iqtisadi həyatında baş verən dəyişikliklər, xüsusi mülkiyyət institutunun inkişafı ər-arvad arasında əmlak münasibətlərinin yeni hüquqi tənzimlənmə modelinin tətbiqi zərurətini yaratmışdır. Ailə Məcəlləsinin 31.2-ci maddəsinə əsasən, nikah müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, ər-arvadın əmlakının qanuni rejimi fəaliyyət göstərir. Bu norma ər-arvadın əmlakının qanuni rejiminin mahiyyət etibarı ilə dizpozitivlik prinsipinə əsaslandığını, ər-arvadın birgə mülkiyyət rejiminin nikah müqaviləsi ilə dəyişdirilmədikdə, onların əmlakının qanuni rejiminin tətbiq edildiyini təsdiq edir. Beləliklə, qüvvədə olan ailə qanunvericiliyi ər-arvadın mülkiyyətinin qanuni rejimi ilə yanaşı, müqavilə rejimini də fərqləndirir. Ədəbiyyatda göstərilmişdir ki, qanunvericiliyə nikah müqaviləsi institutunun daxil edilməsi ər-arvad arasında əmlak münasibətlərinin tənzimlənməsində "inqilabın" baş verməsi sayıla bilər [7].

**Biblioqrafiya**

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı: Qanun, 2019.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Qanun, 2019.
3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı: Qanun, 2019.
4. Azərbaycanda ailə quran tərəflər arasında əmlak münasibətlərini tənzimləyən nikah müqavilələrinin bağlanması halları artıb [Elektron resurs]. URL: http://musavat.com/news/olke/azerbaycanda-nikah-muqavilesi-baglayanlarin-sayi-artib_334629.html (müraciət tarixi: 15.08.2021).
5. Notariatın tarixi barədə nə bilirik? Xalq qəzeti, 06.09.2009. [Elektron resurs]. URL: http://justice.gov.az/prints.php?view=informer&id=18 (müraciət tarixi: 12.08.2021).

6. История становления брачного договора [Elektron resurs]. URL: https://zakon.ru/blog/2018/3/22/ istoriya_ stanovleniya_brachnogo_dogovora (müraciət tarixi: 15.08.2021).

7. Левушкин А.Н. Правовое регулирование имущественных отношений в семье по законодательству Российской Федерации. Дис. … канд. юрид. наук. Ульяновск, 2004, 220 с.

8. Филиппов С.А., Никонорова Ю.В. Брачный договор: международно-правовой опыт // Вестник Саратовской государственной юридической академии. 2015. - № 4 (105). - С. 76-79.

9. Шейфер С.А., Безверхов А.Г. Имущественные преступления в семье: материально-правовой и уголовно-процессуальный аспекты // Государство и Право. 2001. - № 6. - С. 51-55.

10. Шершеневич Г.Ф. Учебник русского гражданского права. - М.: Издательство Статут, 2005. - 461 с.

**Damirciyava M.D.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.36-42**
**UDC: 347.62**

## Marriage contract under legislation of the Republic of Azerbaijan

**Abstract**: One of the innovations of the current civil and family legislation of the Republic of Azerbaijan is the definition of a marriage contract. Along with the Family Code of our country, it is also intended to conclude a marriage contract in the Civil Code. According to Article 225.1 of the Civil Code, the property acquired by the spouses during the marriage is considered to be their common property, unless otherwise provided by the marriage contract. However, the content, conditions, procedure for concluding, changing and terminating the marriage contract are not defined in the Civil Code, but in Chapter 8 of the Family Code, entitled "Contractual regime of marital property.

**Keywords**: marriage; contract spouse; legal regime.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2019 (in Azerbaijani).

2. Civil Code of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2019 (in Azerbaijani).

3. Family Code of the Republic of Azerbaijan. Bakı, Qanun Publ., 2019 (in Azerbaijani)..

4. The number of marriage contracts regulating the property relationships between the parties of marriage has increased in Azerbaijan. Available at: http://musavat.com/ news/olke/azerbaycanda-nikah-muqavilesi-baglayanlarin-sayi-artib_334629.html (accessed: 15.08.2021) (in Azerbaijani).

5. What do we know about the history of notaries? Xalq qazeti, 06.09.2009. Available at: /http://justice.gov.az/prints.php?view=informer&id=18 (accessed: 12.08.2021) (in Azerbaijani).

♦ **Damirciyava Mahabbat Dayirman –** Doctor of Juridical Sciences, Professor, Head of the Civil Law Department of the Baku State University (Azerbaijan). E-mail: mahabbat_d.h.t@mail.ru

6. *Istoriya stanovleniya brachnogo dogovora* [History of formation of marriage contract]. Available at: https://zakon.ru/blog/2018/3/22/ istoriya_ stanovleniya_brachnogo_dogovora (accessed: 15.08.2021).

7. Levushkin A.N. *Pravovoe regulirovanie imuschestvennykh otnosheniy v sem'e po zakonodatel'stvu Rossiyskoy Federatsii* [Legal regulation of the property relationships in a family on legislation of the Russian Federation]. Diss. of PhD in Law. Ulyanovsk, 2004, 220 p.

8. Filippov S.A., Nikonorova Yu.V. *Brachyi dogovor: mezhdunarodno-pravovoy opyt* [Marriage contract: internatonal legal experience]. *Vestnik Saratovskoy gosudarstvennoy yuridicheskoy akademii-Bulletin of the Saratov State Law Academy*. 2015. No. 4(105), pp. 76-79.

9. Sheyfer S.A., Bezverkhov A.G. *Imuschestvennye prestupleniya v sem'e: material'no-pravovoy i ugolovno-protsessual'nyi aspekty* [Property crimes in a family: material legal and criminal prosedural aspects]. *Gosudarstvo i Pravo-State and Law*. 2001. No. 6, pp. 51-55.

10. Shershenevich G.F. *Uchebnik russkogo grazdanskogo prava* [Textbook of the Russian Civil Law]. Moscow, Statut Publ., 461 p.

**Дамирчиева М.Д.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.36-42**
**УДК: 347.62**

## Брачный договор по законодательству Азербайджанской Республики

**Аннотация:** Одним из нововведений действующего гражданского и семейного законодательства Азербайджанской Республики является определение брачного договора. Наряду с СК страны АМ, также в ГК предусмотрено заключение брачного договора. В соответствии со ст. 225.1 ГК, имущество, нажитое супругами во время брака, является их общей собственностью, если иное не установлено брачным контрактом или соглашением между ними. Однако содержание, условия, порядок заключения, основания изменения, расторжения установлены не ГК, а главой 8 СК под названием «Договорный режим собственности супругов».

**Ключевые слова:** брак; супруг; правовой режим.

### Библиография

1. Конституция Азербайджанской Республики. Баку: Ганун, 2019. (на азерб. яз.)
2. Гражданский Кодекс Азербайджанской Республики. Баку: Ганун, 2019 (на азерб. яз.).
3. Семейный Кодекс Азербайджанской Республики. Баку: Ганун, 2019 (на азерб. яз.).
4. В Азербайджане увеличилось количество брачных договоров, регулирующих имущественные отношения между сторонами брака [Электронный ресурс]. Режим доступа:

♦ **Дамирчиева Махаббат Дяйирман кызы** – доктор юридических наук, профессор, зав. кафедрой «Гражданское право» Бакинского государственного университета (Азербайджан). E-mail: mahabbat_d.h.t@mail.ru

http://musavat.com/ news/olke/azerbaycanda-nikah-muqavilesi-baglayanlarin-sayi-artib_334629.html (дата обращения: 15.08.2021) (на азерб. яз.).

5. Что мы знаем об истории нотариата? Халг газети, 06.09.2009. [Электронный ресурс] Режим доступа: /http://justice.gov.az/prints.php?view=informer&id=18 дата обращения: 12.08.2021) (на азерб. яз.).

6. История становления брачного договора [Электронный ресурс] Режим доступа: https://zakon.ru/blog/2018/3/22/ istoriya_ stanovleniya_brachnogo_dogovora (дата обращения: 15.08.2021)

7. Левушкин А.Н. Правовое регулирование имущественных отношений в семье по законодательству Российской Федерации. Дис. … канд. юрид. наук. Ульяновск, 2004, 220 с.

8. Филиппов С.А., Никонорова Ю.В. Брачный договор: международно-правовой опыт // Вестник Саратовской государственной юридической академии. 2015. - № 4 (105). - С. 76-79.

9. Шейфер С.А., Безверхов А.Г. Имущественные преступления в семье: материально-правовой и уголовно-процессуальный аспекты // Государство и Право. 2001. - № 6. - С. 51-55.

10. Шершеневич Г.Ф. Учебник русского гражданского права. - М.: Издательство Статут, 2005. - 461 с.